# soraǧında

bazlıq kimi baxacağıq? Nə vaxta qədər novatorluq dırnağa alınacaq, hoqqabazlığın sinonimi olacaq? Bəs deyilmi?"

Əli Ömərin (əslində, "Açıq pəncərə" müəllifinin) bu sözləri 60-cı illərdə, əlbəttə, yalnız istehsalata deyil, ədəbiyyata münasibətdə də xüsusi ideoloji dəyər daşıyırdı.

Elçin yazır:

"Sistemə qarşı bədii-estetik müxalif-lik, hətta belə demək olarsa, bədii- estetik kin- küdurət, bədii- estetik düşmənçilik (!) "altmışıncılar"ın yaradıcılığının mayasına hopmuşdu və onlar yalnız istedadın təhtəlşüur gücü ilə yox, həm də şüurlu olaraq sosrealizm çərçivələrindən çıxmaq istəyirdilər.

... "Altmışıncılar"la bağlı bir cəhəti də qeyd etmək istəyirəm: bir az obrazlı şəkildə desəm, onlar gəmidə oturub, gəmiçi ilə dava etməyi bacardılar".

Və sübut etmək artıqdır ki, həmin "gəmidə oturub gəmiçi ilə dava etmək" təşəbbüsləri "Açıq pəncərə"nin qəhrəmanlarının təbiəti üçün də az səciyyəvi deyil.

İlk əsərlərindən başlayaraq Elçinin yazıçı üslubunda (və xarakterində) analitik təfəkkürdən irəli gələn səmimi bir "pozitivlik", nikbinlik, ən qatı zülmətdən də bir işığın doğulacağına inam var... İşığa, günəşə, təmiz havaya həmişə açıq olan bir pəncərə var...

"Həsən siqaret yandırdı.

Ulduzlu, aylı gecə idi - yaz gecəsi. Həsənə elə gəldi ki, onun üçün ayrılmış bu otağın həyət pəncərəsi həmişə həmin bu yaz gecəsinin intizarında olmuşdur.

Sabah axşam Həsən Bakıdan gedəcəkdi. Bəlkə də o daha heç vaxt bu pəncərədən baxmayacaqdı. Lakin bu pəncərə bu böyük otaqların gözü olub həmişə ona baxacaqdı. Yaxşı ki, axırıncı gecə də olsa bu pəncərədən əsl bahar mənzərəsini gördü, ulduzlu, aylı yaz gecəsini..."

Həsən bu evdə yalnız taleyi artıq həll olunmuş, etdikləri günahların cəzasını çəkməli olacaq "doğmalar"ını deyil, həm də bütün gələcəyi qabaqda olan doğma bacısını qoyub gedir... O bacısını ki, heç cür bu evdə qala bilməz...

"Əbdül Gəraylı əvvəlcə oğlu ilə əl tutmuşdu, sonra özünü saxlaya bilməyib onu qucaqladı, öpdü:

- Bizi yaddan çıxartma, - dedi və geri dönüb öz otağına girdi. Həsənə elə gəldi ki, bu iki günün içində atası çox qocalıb; onun ürəyi gizildədi.

Qəmər xanım ağlaya-ağlaya onun ardınca bir yekə fincan su atdı.

Dilarə də ağlayırdı, arakəsmədə dayanmışdı"...

Muğanda salınmış yeni qəsəbələrdən birinə Züleyxa ilə birlikdə toyinatla işləməyə gedən Həsən, heç şübhəsiz, bu evi, ailəni həmişəlik tərk edə bilməzdi...

Hər şeydən əvvəl ona görə ki, gənc yazıçının dünyagörüşündə birinə kəskin rəğbət, digərinə kəskin nifrət bəslənilməli olan ictimai təbəqələr yox, bütövlükdə cəmiyyət, onun mənəvi-əxlaqi problemləri var. Və ədəbiyyatın məqsədi də həmin problemlərin həm mümkün qədər geniş realist mənzərəsini göstərməkdən, həm də bu problemlərin haradan nəşət etdiyini, hansı sosial-ruhi naqisliklərin məhsulu olduğunu aşkarlamaqdan ibarətdir... Həsən ona görə mənən güclü, iradəli deyil ki, müəyyən sosial-ideoloji prinsiplərinin daşıyıcısıdır, yox; ona görə ki, min cür əzab-əziyyətdən keçə-keçə həyatdan (ideologiyadan deyil!) insanlıq dərsləri almışdır. Və onun üçün hər hansı qərarı qəbul edərkən əsaslandığı yeganə prinsip varsa, o da daxilindən gələn sos - vicdanın səsidir... Əvvəl təsadüfən ayrı düşdüyü, sonra isə zərurətdən ayrıldığı ailə üzvləri isə bu hissi (və məsuliyyəti) artıq ya itirmişlər, ya da itirmək üzrədirlər...

Məsələnin bir cəhəti isə bundan ibarətdir ki, gəraylılar ailəsi özünün naqis mənəvi-əxlaqi keyfiyyəti ilə göydən düşməyib, tarixi keçmişin mənfur qalığı da deyil, artıq formalaşmış, özünü ölümdirim mübarizələrində "təsdiq etmiş" sosialist həyat tərzinin təbii məhsuludur... Hərçənd müəllif çox dərinə getmir, həqiqəti publisistik-ideoloji intonasiya (və öz adı) ilə kiminsə, yaxud kimlərinsə nəzərinə çatdırmır (o illərdə bunu bu cür kimə və ya necə demək olardı?), ancaq həmin həqiqət əsərin ruhunda, ideya-estetik məntiqində kifayət qədər aydın ifadə olunur...

"Əsli və Kərəm"dən, "Açıq pəncərə"dən sonra "SOS" Elçinin üçüncü povestidir. Və əvvəlki hekayələrində, povestlərində olduğu kimi, burada da gənc yazıçını düşündürən əsas məsələ insanın ruhi- mənəvi aləmində baş verən təbəddülatlar - istər təsadüf, istərsə də zərurət üzündən keçirdikləri həyəcanlar, iztirablardır. "SOS"un, demək olar ki, bütün qəhrəmanları bilavasitə həyatdan gəlir, hamısı canlı, realdır, lakin müəllifin əsas "tədqiqat obyekti", heç şübhəsiz, əri Toğrulu gənc yaşlarında müharibədə itirmiş, körpələrini namus- qeyrətlə böyütmüş Safurənin yaşantılarıdır...

Safurə ilk zərbəni Toğrulun həlak olması xəbərilə alır və dəli olmaq dərəcəsinə çatır; ancaq "haradansa" aldığı iradə onu xilas edir... "Onun qəlbinə bir istək hakim kəsilmişdi; ona elə gəlirdi ki, bu, övlad məhəbbətidir, əslində isə, bu istək daha böyük idi: bu, həyat sevgisi - nəsil saxlamaq instinkti idi".

İkinci zərbənin qarşısına isə, əgər belə demək mümkünsə, özü könüllü çıxır ki, bu da bir ayrı cür instinktin təkidi sayıla bilər...

"Alik elə hey nəsə deyirdi, səsi ürəkdən gəlirdi, ürəyini açıb qoymuşdu ortaya... Safurə Toğrulu eşidirdi. Toğrul güclü idi, gözəl idi. Toğrul kişi idi. Safurəni Toğrul qucaqladı. Toğrul öpdü. Bu güclü əllər, bu möhkəm qollar Toğrulun əlləri, qolları idi... Alik handan- hana özünə gələndə artıq evdə heç kim yox idi: Safurə qaçıb getmişdi. Safurə artıq Toğrulun yoxluğunu dərk etdi... Elə bil Toğrul uşaqları, ev-eşiyi yenidən Safurəyə tapşırıb getdi"...

Elçin "Açıq pəncərə"də nə qədər yazıçı- sosioloqdursa, "SOS"da da o qədər yazıçı- psixoloqdur.

Ana - Safurə hansısa şövqi- təbii duyumla (yenə də instinkt) hiss edir ki, tələbə qızı - Leyla hamilədir. Və bu zərbə əvvəlkilərdən daha dəhşətli olur... Bir tərəfdən, doğma balasını qoruya bilməməsinin günahkarlıq üzüntüləri, digər tərəfdən, düşdüyü bəladan çıxış yolu axtarışı iztirabları onun tədricən normallaşmış, yeni ümidlərlə təskinlik tapıb stabilləşmiş ruh dünyasını təzədən yerindən oynadır, lərzəyə salır... Leylanı aldadıb öz sevgi oyunlarının qurbanı etmiş Rövşənin ailəsilə danışmaq üçün onlara gedən Safurə meşşan laqeydliyilə qarşılaşanda nə edəcəyini bilmir, havalanır. Və bu "söhbət" səhnəsinin dramatizmini daha effektli vermək üçün müəllif nəsrdən drama keçir. Ancaq Safurənin daxilindəki təlatümü yenə də müəllif sözü- nəsr təhkiyəsi ümumiləşdirir:

"... Birdən-birə Safurənin canını vahimə bürüdü, qorxdu, qarşısındakı tamamilə yad bu adamlara baxdı, az qaldı qışqırsın... Sonra Safurənin gözlərinin qabağında boşluqdan qopub sürətlə gəlirmiş kimi, üç hərf yekəldi, lap iri oldu, bütün ətraf boyda qara fonda üç boz hərf: SOS... Yadına düşdü Safurənin. Bir dəfə bu hərfləri qəzetdə oxumuşdu, Məmişdən soruşmuşdu ki, bunlar nədir belə? Məmiş demişdi ki, gəmilər fəlakətə uğrayanda bu cür haray salırlar. Bu, o deməkdir ki, gəmi batır, gəmi məhv olur. Bu, o deməkdir ki, gəmi kömək istəyir, haray salır"...

Lakin Safurənin həyat gəmisi bu dəhşətli zərbədən də batmır. Leylanın doğduğu oğlan uşağı babası Toğrulun adını daşımağa başlayır... Povestin "Epiloq"undan hiss olunur ki, Safurəyə hələ bundan sonra mənəvi zərbələr dəyə bilər. Çünki cəmiyyətin insan taleyinə həm birbaşa, həm də pedant "əxlaq normaları" arxasında gizlənmiş mənəvi laqeydliyindən nə desən gözləmək olar...

Povestin bədii quruluşu, təhkiyə tərzi, əgər belə demək mümkünsə, kifayət qədər mürəkkəb, çoxgedişli, çoxsüxurludur; ilk yarısı sanki "birnəfəsə" yazılıb - pauzasız, sonrakı yarısında isə ovqat vaxtaşırı dəyişir, epizodlar bir-birini əvəz edir, süjet şaxələnir. Və "insan"ı "cəmiyyət" əvəz edir...

Elçinin sosial-psixoloji təhlillərlə zəngin ilk əsərlərində həyat materialının bolluğu, həmin materiala yazıçı həssaslığının miqyası, eləcə də insanın (və cəmiyyətin) mənəvi xilası üçün təxirəsalınmaz "SOS" çağırışlarının həyəcanı, həqiqətən, heyrət doğurur.

Və o da heyrətamizdir ki, bu əsərlər qələmə alınanda müəllif hələ çox gənc, hətta Azərbaycan ədəbiyyatının üç məşhur "altmışıncı"sının ən gənci idi.

---

*Bu gün xalq yazıçısı Elçinin doğum günüdür.*

*"Ədəbiyyat qəzeti"nin yaradıcı kollektivi adından Elçin müəllimi təbrik edir, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Ədəbiyyat qəzeti.- 2017.- 13 may.- S. 19.**